

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 18 aprel 2026-cı il №25 (3027) https://mod.gov.az Qiymətı 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 5-ci Antalya Diplomatiya Forumunda iştirak etmək üçün aprelin 16-da Türkiyəyə işgüzar səfərə gəlib.*




Antalya Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Antalya şəhərinin valisi Hulusi Şahin və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Aprelin 17-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə görüşü olub.

Söhbət zamanı Prezident İlham Əliyevlə Əhməd Əl Şaraanın ötən il Azərbaycana səfəri zamanı, həmçinin 4-cü Antalya Diplomatiya Forumu çərçivəsində görüşləri məmnunluqla xatırlanıb.

Suriyada baş vermiş dəyişikliklərdən sonra ölkələrimiz arasında münasibətlərin inkişafı ilə bağlı konkret addımların atıldığı vurğulanıb.

Enerji sahəsində əməkdaşlığın vacibliyinə toxunularaq, bu xüsusda Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracı layihəsinin həyata keçirilməsinin əhəmiyyəti və bunun Suriyanın enerji təhlükəsizliyinə töhfə verməklə ümumilikdə bu ölkənin inkişafında önəmi qeyd olunub.

Əhməd Əl Şaraa Azərbaycanın Suriyaya göstərdiyi dəstəyə görə dövlətimizin başçısına bir daha minnətdarlıq edib.

Görüşdə ikitərəfli münasibətlərin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb, əlaqələrimizin inkişafında müxtəlif səviyyəli qarşılıqlı səfərlərin və təmasların roluna toxunulub.

Söhbət zamanı bölgədə yaranmış gərginlikdən narahatlıq ifadə olunub, münaqişənin diplomatik yolla həll edilməsinin vacibliyi vurğulanıb.

Dövlətimizin başçısı Əhməd Əl Şaraanı ölkəmizə səfərə dəvət edib.

Dəvət məmnunluqla qəbul olunub.

* * *

Aprelin 17-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Tufan Erhürmanla görüşü olub.

Dövlətimizin başçısı Tufan Erhürmana Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti seçilməsi münasibətilə təbriklərini çatdırıb.

Tufan Erhürman təbriklərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Azərbaycan Respublikasının Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi daimi dəstəyə toxunulub.

Prezident Tufan Erhürman buna görə dövlətimizin başçısına təşəkkür edib.

Azərbaycan Prezidenti ölkəmizin həmişə Şimali Kipr Türk Cümhuriyyətinin yanında olduğunu deyərək, göstərilən dəstəyin gələcəkdə də davam etdiriləcəyini vurğulayıb.

Söhbət zamanı bu ilin aprelində Azərbaycan Milli Məclisi, Türkiyə Böyük Millət Məclisi və Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin dostluq qrupları üzvlərinin Bakıda keçirilmiş 3-cü iclasının əhəmiyyəti qeyd edilib.

Görüşdə Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində qatılmasının önəmi vurğulanıb, həmçinin bir sıra sahələrdə əməkdaşlıqla bağlı müzakirələr aparılıb.

(Ardı 2-ci səhifədə)

## Türkiyədə yeni xüsusi təyinatlı briqadalar formalaşdırılır

Türkiyə Milli Müdafiə Nazirliyi hərbi xüsusi təyinatlı briqadaların sayının artırılması üçün tədbirlərin həyata keçirildiyini elan edib.

AZƏRTAC xəbər verir ki, Türkiyə Milli Müdafiə Nazirliyinin məlumatına görə, qərar Rusiya-Ukrayna münaqişəsi və İran ətrafındakı gərginlik kontekstində təcrübə və təhlükəsizlik ehtiyaclarının təhlili əsasında qəbul edilib.

Nazirlik bildirib: "Ankara müharibənin təbiətindəki dəyişiklikləri və istifadə olunan texnologiyaları yaxından izləyir. Bu baxımdan, Türkiyə Silahlı Qüvvələri təşkilati strukturunu daim yeniləyir".

Yeni xüsusi təyinatlı briqadaların müasir təhdid qiymətləndirmələrinə və əməliyyat konsepsiyalarına uyğun olaraq, hazırda mövcud olanlardan fərqli prinsiplər əsasında yaradılması planlaşdırılır.



## İstiqlal şəhidi general-mayor İbrahim ağa Usubov



İbrahim ağa Musa ağa oğlu Usubov 6 mart 1872-ci ildə Qazax qəzasının Yuxarı Salahlı kəndində anadan olub. İlk hərbi təhsilini Tiflis Kadet Korpusunda alıb, 1892-ci ildə buranı əla qiymətlərlə bitirib. 1894-cü ildə isə 2-ci Konstantinovski Hərbi Məktəbini bitirib, "podporuçik" rütbəsi alaraq 31-ci Piyada Diviziyasının 122-ci Tambov Piyada Alayına göndərilib.

15 may 1898-ci ildə "poruçik", 15 may 1902-ci ildə isə "ştabs-kapitan" rütbəsinə yüksəlib.

O, xidmət etdiyi alay ilə birgə Rus-Yapon müharibəsində döyüşüb. Yaponlara qarşı döyüşlərdə fərqləndiyinə görə üzərində "İgidliyə görə" yazısı olan 4-cü dərəcəli "Müqəddəs Anna", 4-cü dərəcəli "Müqəddəs Vladimir" (qılınc və yayla) və 3-cü dərəcəli "Müqəddəs Stanislav" (qılınc və yayla) ordeni ilə təltif edilib. 11 may 1905-ci ildə 4-cü bölüyün komandiri təyin edilib və 7 avqustda xidmətdə fərqləndiyinə görə "kapitan" rütbəsinə yüksəlib.

İbrahim ağa Usubov Birinci Dünya müharibəsinin iştirakçısı olub və döyüşlərdə şücaətlə vuruşub. O, tam artilleriya generalı Əlağa Şıxlinski və general Səməd bəy Mehmandarovla çiyin-çiyinə döyüşüb.

14 avqust 1914-cü ildən 122-ci Tambov Piyada Alayının 1-ci taborun komandiri olub. 14 oktyabr 1914-cü ildə kapitan Usubovun taboru Mizinets kəndi yaxınlığındakı yüksəkliklərə hücum edərək Avstriya qüvvələrini geri çəkilməyə məcbur edib və üç gün ərzində Avstriya qoşunlarının əks-hücumlarını dəf edib. Həmin ilin dekabrında döyüşlərdə fərqləndiyinə görə imperatorun əmri ilə "podpolkovnik" rütbəsinə yüksəlib.

Mizinets kəndi yaxınlığındakı möhkəmləndirilmiş təpəyə hücum zamanı Usubov komandirlik etdiyi taborla düşməni iki sıralı səngərdən qovub və təpəni ələ keçirdikdən sonra oranı üç gün nəzarətdə saxlayıb. Peremışl qalasından artilleriya atəşi ilə dəstəklənən Avstriya qoşunlarının bütün əks-hücumlarını dəf edib, düşməni qaladan qovub çıxarıb. Beləliklə, o, tabora verilən döyüş tapşırığını yüksək səviyyədə, şücaətlə yerinə yetirib.

(Ardı 6-cı səhifədə)

## “Anadolu Ankası-2026” təlimində tapşırıqlar uğurla icra olunub



Qardaş Türkiyə Respublikasının Konya şəhərində keçirilən "Anadolu Ankası-2026" ("Anatolian Phoenix-2026") beynəlxalq axtarış-xilasetmə təliminində növbəti mərhələnin tapşırıqları uğurla yerinə yetirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, təlimdə SU-25 və F-16 təyyarələri, eləcə də T-70 helikopterləri ilə şərti düşmən ərazisində qəzaya uğramış hava gəmisinin ekipaj üzvlərinin axtarışı və xilas edilməsi məqsədilə havada üstünlüyün əldə olunması, eləcə də hava dəstəyinin təmin edilməsi üzrə taktiki tapşırıqlar icra edilib.

Əməliyyat zamanı hava dəstəyi yüksək koordinasiya ilə həyata keçirilib, təlim bölgəsində risklərin minimuma endirilməsi və xilasetmə fəaliyyətlərinin effektivliyinin artırılması təmin olunub.

(Ardı 4-cü səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri







(Əvvəli 1-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Antalyada Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşüb.

Söhbət zamanı dövlətimizin başçısı ilə Maya Sandunun Azərbaycanda və Moldovada, həmçinin beynəlxalq tədbirlər çərçivəsində keçirdiyi görüşlər məmnunluqla xatırlanıb.

Azərbaycan-Moldova münasibətlərinin perspektivləri müzakirə olunub, əlaqələrimizin inkişaf etdiyi vurğulandı, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əməkdaşlığımızın genişləndirilməsi baxımından roluna toxunulub.

Ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulanıb. Moldovanın xüsusilə enerjiyə ehtiyac duyduğu zamanda Azərbaycan tərəfindən nümayiş olunan dəstək bir daha yüksək qiymətləndirilib.

Maya Sandu vurğulayıb ki, Moldovada yaşayan Azərbaycan icması ictimai-siyasi həyatda fəal iştirak etməklə bu ölkənin inkişafına öz töhfəsini verir.



Görüşdə dövlət başçıları qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də 5-ci Antalya Diplomatiya Forumu çərçivəsində Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şəriflə görüşüb.

* * *

Aprelin 17-də Türkiyənin Antalya şəhərində 5-ci Antalya Diplomatiya Forumunun açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Tədbirdə Türkiyənin xarici işlər naziri Hakan Fidan açılış nitqi ilə çıxış edib.

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib. Prezident Rəcəb Tayyib Ərdoğan çıxışında Türkiyə ilə Ermənistan arasında davam edən normallaşma prosesinin Azərbaycanla əlaqəli şəkildə aparıldığını vurğulayıb. Türk Dövlətləri Təşkilatından danışan Türkiyə Prezidenti qurumun fəaliyyətinin daha da inkişaf etdiyini bildirərək deyib: "Bu ilin son aylarında ölkəmizdə təşkil edəcəyimiz XIII Türk Dünyası Zirvəsində yeni dövrdə sədrliyi Azərbaycandan təhvil alacağıq. İnşallah, bu müddətdə təşkilatımızın beynəlxalq fəaliyyətini və nüfuzunu daha da artıracağıq. Azərbaycanla əlaqələndirilmiş şəkildə qonşumuz Ermənistanla normallaşma prosesində addım-addım irəliləyirik. Bu minvalla Asiya ilə Avropa arasındakı ticarətdə ən etibarlı marşrut olan və Xəzərdən keçən Şərq-Qərb - Orta Dəhliz təşəbbüsünə də güclü dəstəyimiz davam edir".

* * *

Qeyd edək ki, geosiyasi gərginliklər, dəyişən güc balansları, ticarət maneələri və çoxtərəfliliyə artan təzyiq fonunda cari qlobal mənzərənin proqnozlaşdırılması getdikcə daha çətin xarakter alır. Beşinci Forumun mövzusu "Gələcəyi planlaşdırarkən qeyri-müəyyənliklərin öhdəsindən gəlmək" riskləri və imkanları müəyyənləşdirməyi, strategiyalar hazırlamağı və əldə olunan razılaşmaları əməli addımlara çevirməyi tələb edir.

Builki forumda 150-dən çox ölkədən 22 dövlət və hökumət başçısı, 14 dövlət və hökumət başçısının müavini, 39-u xarici işlər naziri olmaqla 50-dən artıq nazir, həmçinin 75-i beynəlxalq təşkilatların nümayəndəsi olmaqla ümumilikdə 500-dən çox yüksəksəviyyəli şəxs iştirak edir.

Forum çərçivəsində liderlərin panelləri də daxil olmaqla, 40-dan çox tədbir və sessiyanın keçirilməsi nəzərdə tutulur.

* * *

Aprelin 17-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü keçirilib.

**AZƏRTAC-ın materialları əsasında**





## Prezident Ərdoğan: Ermənistanla normallaşma prosesini Azərbaycanla əlaqəli şəkildə davam etdiririk

Türkiyə ilə Ermənistan arasında davam edən normallaşma prosesi Azərbaycanla əlaqəli şəkildə aparılır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Antalya Diplomatiya Forumunun rəsmi açılış mərasimində çıxışı zamanı səsləndirib.

Türkiyə Prezidenti deyib: "Avrasiyada sülh və sabitliyin təminatı olaraq gördüyümüz Türk Dövlətləri Təşkilatını hər ötən gün daha da gücləndiririk. Bu ilin son rübündə ölkəmizdə keçirəcəyimiz XIII Türk Dünyası Zirvəsində təşkilata sədrliyi Azərbaycandan təhvil alacağıq".

ABŞ ilə İran arasında əldə olunan atəşkəs barədə danışan Türkiyə Prezidenti bunun açdığı fürsət pəncərəsinin qalıcı sülhün təmin edilməsi üçün səmərəli şəkildə dəyərləndirilməsinin vacibliyini vurğulayıb.

## Hakan Fidan: Türkiyə Azərbaycan ilə Ermənistan arasında sülhə töhfə verməyə çalışır

Türkiyə Azərbaycan ilə Ermənistan arasında sülhün bərqərar olması üçün ciddi səylər göstərir.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin xarici işlər naziri Hakan Fidan Ankarada Anadolu agentliyinin redaktorları ilə "dəyirmi masa" müzakirəsi zamanı bildirib.

Fidan qeyd edib ki, Ankaranın regionda gərginliyin qarşısını almaq üçün atdığı fəal addımlar diplomatik sahədə, o cümlədən regional və qlobal oyunçular arasında güc balansının qorunması məqsədilə də özünü göstərir.

"Vəziyyətdəki hər hansı dəyişiklik və bölgədəki qeyri-sabitlik Türkiyəyə bu və ya digər şəkildə təsir edir, ona görə də Ankaranın Cənubi Qafqaz da daxil olmaqla dünyanın müxtəlif yerlərində baş verən hadisələrə perspektiv dövlət vizyonu olmalıdır", - deyə Türkiyənin xarici işlər naziri vurğulayıb.

## Hikmət Hacıyev: Azərbaycan regionda sülh gündəliyinə tam sadiqdir

Biz uzun illər forumlara müharibə və münaqişə gündəmi ilə qatılırdıq, lakin indi artıq sülh gündəmi ilə gəlirik. Müharibə başa çatıb və Azərbaycan regionda sülh gündəliyinə tam sadiqdir. Azərbaycan bu istiqamətdə konkret addımlar ataraq, Ermənistan tərəfi ilə praqmatik əməkdaşlığı həyata keçirir və sülh gündəliyini real müstəviyə keçirir. Bu addımlar iki ölkə arasında etimadın möhkəmlənməsinə xidmət edir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ADF2026 çərçivəsində keçirilən "Cənubi Qafqaz: Strateji mərkəz olmaq yolunda" mövzusunda panel sessiyada səsləndirib.

Hikmət Hacıyev bildirib ki, artıq Ermənistan və Azərbaycan arasında ticarət əlaqələri formalaşmağa başlayır: "Uzunmüddətli perspektivdə regionda sülh və təhlükəsizliyi təmin edəcək yeni regional təhlükəsizlik arxitekturası qurulur. Gələcəyə baxaraq, Gürcüstan, Ermənistan və Azərbaycan arasında əməkdaşlıq imkanlarının genişləndiyi inklüziv Cənubi Qafqaz regionunu görürük".

# Müdafiə Nazirliyinin rəhbərliyi azad olunmuş ərazilərdə xidmət edən şəxsi heyətlə görüşüb



*Müdafiə Nazirliyinin rəhbər heyəti azad olunmuş ərazilərdə xidmət edən hərbi qulluqçularla görüşüb, onların qayğıları və təminat məsələləri ilə maraqlanıb, eləcə də hərbi hissədə yaradılan sosial-məişət şəraiti ilə tanış olub.*

Müdafiə naziri şəxsi heyətin bilik və bacarıqlarının təkmilləşdirilməsi üçün onların üzərlərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsinin vacibliyini qeyd edib. Hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması məsələlərinin daima Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqətində olduğunu vurğulayıb.

Müdafiə naziri general-polkovnik Zakir Həsənova məruzə edilib ki, hərbi hissədə şəxsi heyətin xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili və hərbi qulluqçuların peşəkarlığının artırılması üçün müasir standartlara cavab verən bütün imkanlar mövcuddur.



Sonda hərbi hissənin təlim şəhərciyində olan heyət hazırlıq məşğələlərinin keçirilməsini izləyib, artilleriya vasitələrinin vəziyyəti və istismarı ilə də maraqlanıb.







# Azad olunmuş ərazilərdə yeni hərbi infrastruktur obyektləri yaradılır





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunun maddi-texniki bazasının gücləndirilməsi, eləcə də hərbi infrastruktur obyektlərinin inşası və müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər uğurla davam etdirilir.

Müdafiə Nazirliyinin rəhbər heyəti azad edilmiş ərazilərdə əsaslı təmir olunan və yeni inşa olunan təlim mərkəzi və hərbi hissələrdə görülən işlərlə tanış olub.



Müdafiə naziri general-polkovnik Zakir Həsənova məruzə edilib ki, keyfiyyətli tikinti materialları ilə inşa edilən yeni hərbi obyektlərdə şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması məsələsi daima prioritetdə saxlanılır və xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili üçün zəruri imkanlar yaradılır.

Nazirliyin rəhbər heyəti təmir-tikinti işlərinin yüksək keyfiyyətlə və plana uyğun müddətdə yekunlaşdırılması ilə bağlı müvafiq tapşırıqlar verib.





## **Levan Jorjoliani:** Cənubi Qafqaz ölkələrinin ortaq baxışı xalqlarımızın daha firavan yaşayacağına qəti inam yaradır

Bölgə ölkəsi olaraq, biz qonşularımız Azərbaycan və Ermənistan üçün çox sevinirik. Onlar sülhə nail ola biliblər. Hazırda onların ticarət münasibətləri inkişaf edir və bu prosesdə Gürcüstan mühüm rol oynayır, oynamaqda da davam edəcək. Biz də bu prosesi dəstəkləyir və təşviq edirik.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Gürcüstan hökumətinin aparat rəhbəri Levan Jorjoliani ADF2026 çərçivəsində keçirilən "Cənubi Qafqaz: Strateji mərkəz olmaq yolunda" mövzusunda panel sessiyada səsləndirib.

O, deyib ki, Cənubi Qafqaz ölkələrinin eyni baxışa malik olmaları, rifah, sabitlik və sülhün təmin olunması istiqamətində ortaq mövqe nümayiş etdirmələri xalqlarımızın daha firavan yaşayacağına qəti inam yaradır: "Biz sülh siyasətini təşviq etməyə davam edəcəyik. Digər prioritet istiqamətimiz iqtisadiyyatdır. Sülh və iqtisadiyyat bir-biri ilə sıx bağlıdır. Məhz buna görə də iqtisadi artımı təşviq etməyi davam etdirəcəyik".

# Müdafiə Nazirliyinin Baş Klinik Hospitalının yaradılmasının 34-cü ildönümü keçirildi

*Tibb İdarəsində Müdafiə Nazirliyinin Baş Klinik Hospitalının yaradılmasının 34-cü ildönümü ilə əlaqədar tədbir keçirildi. Tədbirdə Tibb İdarəsinin və Müdafiə Nazirliyinin Baş Klinik Hospitalının rəhbərliyi, tibb heyəti və veteran həkimləri iştirak etdilər.*



Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hospitalın ərazisindəki büstü ziyarət olundu, önünə gül dəstələri düzüldü. Ulu Öndərin və respublikamızın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra hospitalın bölmə rəisi ehtiyatda olan polkovnik Asif Daşdəmirbəyli Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun hospitalın şəxsi heyətinə təbrik məktubunu oxudu. Baş Klinik Hospitalın şəxsi heyətini səmimi-qəlbdən təbrik edən və hər birinə şərəfli xidmətlərində yeni uğurlar arzulayan müdafiə naziri təbrik məktubunda bildirir: "Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan Ordusu qısa müddətdə böyük inkişaf yolu keçmişdir. Əcdadlarımızın hərbi ənənələrini yaşadan, xalqın sevgisi və dövlətin qayğısı ilə əhatə olunmuş Azərbaycan Ordusu Ümummilli Liderin layiqli davamçısı Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin müdafiə qüdrətinin artırılmasında böyük uğurlar qazanmışdır. Müdafiə Nazirliyinin Baş Klinik Hospitalı ötən illər ərzində şərəfli bir inkişaf yolu keçmiş, yüksək ixtisaslı kadrlara malik təbabət ocağı kimi respublikamızın səhiyyə sistemində öz layiqli yerini tutmuşdur. İnanıram ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə bundan sonra da sadiq qalacaq, hərbi qulluqçuların sağlamlığının qorunması işinin müasir tələblərə uyğun qurulması üçün səylərinizi artıracaqsınız".





Tədbir Baş Klinik Hospitalın keçdiyi şərəfli inkişaf yoluna həsr olunmuş videoçarxın nümayişi ilə davam etdi.

Birinci Qarabağ müharibəsinin getdiyi ilk dönəmlərdə - 14 aprel 1992-ci ildə milli həkim kadrları ilə təmin edilmiş, tabeçiliyində 36 bölmə, 4 laboratoriya, 1 aptek olmaqla, Baş Klinik Hospitalın yaradılması haqqında Azərbaycan Respublikasının müdafiə nazirinin müvafiq əmr imzaladığını qeyd edən hospitalın rəisi tibb xidməti polkovniki Vüqar Paşayev məruzəsində bildirdi ki, həmin dövrdə xalqımızın Ümummilli Lideri Heydər Əliyev 1994-1995-ci illərdə hospitalda müalicə olunan yaralı və xəstə hərbi qulluqçuları bir neçə dəfə ziyarət etmişdir. "Həmin ənənə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən davam etdirilmişdir. Belə ki, 2016-cı il Aprel döyüşlərində və 2020-ci ildə Vətən müharibəsi zamanı dövlət başçısı və Birinci vitse-prezident Mehriban xanım Əliyeva dəfələrlə Baş Klinik Hospitalına gələrək, yaralı və xəstələri ziyarət etmişlər".

Hospital rəisi onu da vurğuladı ki, dövlət başçısının diqqət və qayğısı nəticəsində müasir tipli, tibbi avadanlıqlarla tam təchiz edilmiş müalicə korpusları tikilərək hospitalın istifadəsinə verilmişdir. "Kollektiv Birinci Qarabağ müharibəsində, 26 il atəşkəs dövründə, 2016-cı ilin Aprel döyüşlərində, eləcə də 2020-ci ildə Vətən müharibəsi və 2023-cü il 19-20 sentyabr antiterror əməliyyatı zamanı üzərinə düşən vəzifəni yüksək səviyyədə peşəkarlıqla yerinə yetirmişdir". Hospitalın fəaliyyətinin Ordu rəhbərliyi tərəfindən yüksək qiymətləndirdiklərini diqqətə çatdırdı. Tibb xidməti polkovni ki, Vüqar Paşayev bildirdi ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti hər il dövlət bayramlarında Baş Klinik Hospitalda müalicə olunan hərbi qulluqçuları ziyarət edir, onların qayğıları ilə maraqlanır".

Daha sonra Tibb İdarəsinin rəisi tibb xidməti polkovniki Anar İsmayılov çıxış edərək Müdafiə Nazirliyinin rəhbərliyi adından hospitalın şəxsi heyətini, ordumuzun bütün hərbi tibb personalını təbrik etdi, onlara şərəfli və çətin xidmətlərində yeni nailiyyətlər arzuladı. Tibb xidməti polkovniki qeyd etdi ki, hospital yarandığı gündən peşəkar tibb heyəti ilə ordumuzun hərbi qulluqçularının sağlamlığının keşiyində dayanıb. "Bu gün hospitalımız daha müasir, daha yüksək texnologiyaya malik olmaqla fəaliyyətini uğurla davam etdirir. Naxçıvanda, Kəlbəcərdə fəaliyyət göstərən tibb müəssisələrinin də maddi-texniki təminatı gündən-günə gücləndirilərək müasir tibbi texnologiyanın zəruri avadanlıqları ilə təchiz olunub. Hərbi səhiyyəmiz dövlət və ordu rəhbərliyinin diqqət və qayğısı nəticəsində daha da inkişaf etdirilir".

Sonra hospitalın formalaşmasında böyük xidməti və əməyi olmuş veteran həkimlər bu tibb müəssisəsinin keçdiyi şanlı və şərəfli xidmət yolundan danışdılar.

Sonda Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalı tibb xidməti polkovniki Paşayev Vüqar Murad oğluna və baş gizir Əmirov Fərzan Oktay oğluna təqdim edildi. Hospitalın formalaşmasında xidmətləri olan veteran həkimlər və bir qrup tibb heyəti fəxri fərmanlarla təltif olundu.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# "Anadolu Ankası-2026" təlimində tapşırıqlar uğurla icra olunub







**(Əvvəli 1-ci səhifədə)**

Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) pilotları verilmiş tapşırıqları peşəkarlıqla yerinə yetirərək təlimin məqsədlərinə nail olunmasında əhəmiyyətli nəticələr göstəriblər.

Qeyd edək ki, beynəlxalq axtarış-xilasetmə təlimində ölkəmizi HHQ-nin pilotları, paraşüt-desant və axtarış-xilasetmə xidmətinin mütəxəssisləri, aviayönləndiricilər, həmçinin texniki heyət və aviasiya vasitələri təmsil edir.



* * *

Türkiyənin Konya şəhərində keçirilən "Anadolu Ankası - 2026" ("Anatolian Phoenix - 2026") beynəlxalq axtarış-xilasetmə təlimi uğurla başa çatıb.

Bağlanış mərasimində çıxış edən təlim rəhbərləri icra olunmuş fəaliyyətlərin nəticələri və ümumi təhlili barədə iştirakçılara ətraflı məlumat veriblər.

Tədbir zamanı təlimin gedişatını əks etdirən statistik göstəricilər təqdim olunub, həmçinin beynəlxalq axtarış-xilasetmə təliminə həsr edilmiş qısa videoçarx nümayiş etdirilib.

Tədbirin sonunda iştirakçı heyətlər arasında qarşılıqlı hədiyyələr təqdim olunub.



## Milli Qəhrəmanlarımız

# Tarixə çevrilən ömür

*Tarix yalnız hadisələrin xronologiyası deyil, həm də o hadisələri yaradan insanların taleyidir. Elə ömürlər var ki, onlar bir xalqın yaddaşına qəhrəmanlıq nümunəsi kimi həkk olunur. Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovun həyat yolu da mərdliyin, iradənin və Vətən sevgisinin canlı təcəssümüdür.*

İsgəndər Söhrab oğlu Aznaurov 1956-cı il avqustun 16-da Özbəkistanın Buxara şəhərində dünyaya göz açıb. Uşaqlıq və gənclik illəri sadə keçsə də, onun xarakterində formalaşan məsuliyyət, intizam və dözümlülük gələcək həyat yolunun istiqamətini müəyyənləşdirirdi. Orta təhsilini başa vurduqdan sonra 1974-cü ildə hərbi xidmətə çağırılan Aznaurov artilleriya qoşunlarında xidmət edib.

Hərbi xidmətdən sonra Özbəkistanın Daxili İşlər Nazirliyində fəaliyyət göstərsə də, taleyin onu gətirəcəyi əsas ünvan Azərbaycan idi. Azərbaycana köçərək Gədəbəy rayonunda məskunlaşması onun həyatında dönüş nöqtəsi oldu. Bu torpağa bağlılıq hissi qısa zamanda İsgəndərin varlığının ayrılmaz hissəsinə çevrildi. O, artıq təkcə bu torpaqda yaşayan bir insan deyil, bu torpağı qorumağa hazır olan bir Vətən oğlu idi.

1990-cı ilin əvvəllərində Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişənin alovlanması ilə ölkənin hər bir guşəsində olduğu kimi, Gədəbəydə də vəziyyət gərginləşdi. Belə bir zamanda İsgəndər Aznaurov tərəddüd etmədən könüllü olaraq cəbhəyə yollandı. Onun üçün bu, seçim deyil, borc idi.

Artilleriya üzrə peşəkar biliklərə malik olan Aznaurov döyüş bölgəsində qısa müddətdə seçilən hərbçilərdən birinə çevrildi. O, düşmən mövqelərini yüksək dəqiqliklə məhv edir, hücumların qarşısını qətiyyətlə alınmasında cəsarətlə iştirak edirdi. Onun topdan dəqiq atəş zərbələri düşmən üçün qaçılmaz sona çevrilmişdi. Döyüş yoldaşları ona böyük hörmətlə "Topçu İsgəndər" deyirdilər.



Lakin onun qəhrəmanlığı yalnız hərbi peşəkarlıqla məhdudlaşmırdı. İsgəndər Aznaurov əsl lider idi. O, döyüş yoldaşlarına mənəvi dayaq olur, onların qələbə əzmini yüksəldir, ən çətin anlarda belə geri çəkilməməyi aşılayırdı. Onun olduğu mövqedə qorxuya yer qalmırdı. Çünki o, cəsarətin canlı nümunəsi idi.

1993-cü ilin 18 aprel tarixi İsgəndər Aznaurovun qəhrəmanlıq tarixində xüsusi yer tutur. Həmin gün Gədəbəy istiqamətində "Örükdaş" adlanan ərazidə şiddətli döyüşlər gedirdi. Düşmənin sayca və texnika baxımından üstün qüvvələrinə qarşı məhdud imkanlarla mübarizə aparılırdı. Belə bir qeyri-bərabər şəraitdə İsgəndər Aznaurov öz döyüş mövqeyini tərk etmədi.

Səhhətində ciddi problemlərin yaranmasına baxmayaraq, o, müalicədən imtina etdi. Əksinə, daha təhlükəli istiqamətə - ön xəttə doğru irəlilədi. Minalanmış ərazini keçərək döyüşün ən qızğın nöqtəsinə çatdı. Onun idarə etdiyi topdan açılan atəşlər düşmənə ağır zərbələr endirdi, hücumun qarşısını aldı. Lakin bu döyüş onun son döyüşü oldu. İsgəndər Aznaurov son nəfəsinə qədər vuruşaraq qəhrəmancasına şəhid oldu. Onun ölümü bir insanın itkisi olsa da, qəhrəmanlıq ruhunun əbədiləşməsi idi.

Dövlət onun xidmətlərini yüksək qiymətləndirdi. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə İsgəndər Aznaurov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldü. Bu ad onun həyat yolunun ən ali qiyməti, xalqın ona olan ehtiramının rəmzidir.

İsgəndər Aznaurov Bakı şəhərində Şəhidlər xiyabanında dəfn olunub. Onun məzarı xalqın ziyarət ünvanına çevrilib. Hər il minlərlə insan buraya gələrək qəhrəmanın xatirəsini yad edir, ruhuna dualar oxuyur.

İsgəndərin adı müxtəlif məktəblərə, küçələrə verilib, haqqında məqalələr yazılır, sənədli filmlər çəkilir. Lakin bütün bunlardan daha önəmlisi onun xalqımızın yaddaşında yaşamasıdır. Çünki belə qəhrəmanlar təkcə tarix kitablarında deyil, insanların qəlbində ölümsüzləşirlər.

Aznaurovun ömür yolu bizə bir daha xatırladır ki, Vətən sevgisi sadəcə söz deyil. Bu sevgi ən ağır sınaqlarda, ən çətin məqamlarda göstərilən qətiyyət, fədakarlıq və cəsarətlə ölçülür. O, öz həyatı ilə sübut etdi ki, torpaq uğrunda canından keçənlər, əslində, ölmürlər, əbədiyyət qazanırlar.

Bu gün müstəqil Azərbaycanın səmasında dalğalanan üçrəngli bayrağımızın hər rəngində belə qəhrəmanlarımızın izi var. İsgəndər Aznaurovun adı isə həmin bayrağın kölgəsində daim qürurla çəkiləcək. Çünki o, sadəcə bir topçu deyildi. O, bir xalqın yenilməz ruhunun simvolu idi.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

## Medallı igidlərimiz

# "Uyğun istiqamət üzrə döyüş uçuşu etdim"

İnsanı ucaldan əməkdir deyiblər. Hansı peşəni seçirsən seç, fərqi yoxdur, gərək peşənin peşəkarı olasan. Bunun üçün insan səylə çalışmalıdır. Belə olan halda söz yox ki, uğurların çox olacaq, çox olduqca da əməyindən zövq alacaqsan. Polkovnik-leytenant Səfa Səmədov da məhz əməksevər, zəhmətlə ucalan zabitdir. Hərbi hissədə yüksək döyüş təcrübəsinə malik təyyarəçilərə gəlincə, ilk anda Səfanın adını qeyd edirlər. Zabit Zakir Əmirov tabeliyində olan pilot haqqında dedi: "Polkovnik-leytenant Səfa Səmədov xidmətə başladığı gündən bacarığı, intizamı ilə özünü tanıdıb. İkinci Qarabağ müharibəsi zamanı o, idarə etdiyi helikopterlə təyin edilmiş düşmən hədəflərini məhv edib. Zabit yüksək döyüş bacarığı ilə özünü doğruldub".

Polkovnik-leytenant Səfa Zöhrab oğlu Səmədov Lerik rayonunun Pirəsoran kəndində, müəllim ailəsində doğulsa da, onun uşaqlıq və məktəb illəri Neftçala rayonunun Xol Qaraqaşlı kəndi ilə bağlıdır. Çünki atası Zöhrab müəllim institutu bitirəndən sonra Xol Qaraqaşlı kənd orta məktəbində müəllim işləməyə başlayıb. Onun orta məktəbdə oxuduğu illərdə torpaqlarımız ermənilərin işğalı altında idi. Səfa da hamı kimi torpaqları azad etmək, Vətənin ərazi bütövlüyünü tam görmək istəyirdi. Bu arzu, bu istək onu indiki Heydər Əliyev adına Hərbi İnstitutun "Təyyarəçilik" fakültəsinə gətirdi. Səfa düşünürdü ki, müasir ordular daha çox döyüş üçün təyyarələrə və



helikopterlərə üstünlük verir. O, orta məktəbdə oxuyanda özünü gələcəyin pilotu görürdü. Bu istəyə, bu amala yetmək üçün çalışdı və məqsədinə çatdı. Əbəs yerə deyilməyib: "Niyyətin hara, mənzilin ora".

Səfa helikopterlə uçuş keçirməzdən əvvəl onun haqqında nəzəri bilikləri mükəmməl mənimsəyib. Təcrübəli pilotların yanında uçuşlar edib, püxtələşib. 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev düşmənin cəbhə xəttində törətdiyi təxribata cavab olaraq orduya əks-hücum əmri verdi. Bütün qoşunlar döyüşə cəlb edildi. Pilotlar da döyüş tapşırıqlarını cəbhənin müxtəlif istiqamətlərində yerinə yetirmək barədə əmr aldılar. Həmin vaxt gənc, perspektivli pilot Səfa Səmədov Tərtər-Ağdərə bölgəsində düşmənin əsas hədəflərini məhv etdi. Talış, Suqovuşan yaşayış məntəqələrinin azad edilməsi zamanı Səfa helikopterlə dəfələrlə səmaya qalxaraq uğurla döyüş tapşırığını yerinə yetirib, sağ-salamat məntəqəyə eniş edib. Səfa həmin günləri belə xatırlayır: "Cəbhə boyu gərgin döyüşlər gedirdi. Düşmən daha çox Ağdərə istiqamətində qüvvə toplamışdı. Cəbhə xəttini yarmaq, sanki müşkül olmuşdu. Döyüşün ilk günü mənə bir neçə helikopter hədəfi verdilər. Verilən hədəfləri nəyin bahasına olursa-olsun, məhv etməli idim. Bu mənim ilk döyüş uçuşum olacaqdı. Helikopteri düşmənə hədəf verməməklə tapşırığı yerinə yetirmək barədə bir neçə gedişi nəzərdən keçirdim. Daha uyğun istiqamət üzrə qərarlaşıb döyüş uçuşu etdim və hədəfləri dəqiq atəşlə zərərsizləşdirdim. Sonradan bu cür uçuşlarım çox oldu".

Bacarıqlı pilot müharibə zamanı Ağdam istiqamətində də düşmənə ağır zərbələr endirib. Belə ki, düşmən hücumunun qarşısının alınması naminə uğurlu döyüş tapşırıqlarını icra edib.

Polkovnik-leytenant Səfa Səmədov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif olunub. Səfa 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatında da iştirak edib.

Peşəkar pilot Səfa Səmədov bu gün də xidmətini nümunəvi davam etdirir. Torpaqlarımızın azad edilməsində fəal iştirakına görə pilotumuz özünü xoşbəxt hiss edir. Bundan sonra da istənilən döyüş tapşırığını uğurla yerinə yetirməyə hazır olduğunu bildirdi.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

## Nümunəvi xidmət

# Atanın döyüş yolunu davam etdirən oğul

Vətənimizin müdafiəsində əzmlə dayanan hərbçilərimizdən biri də ordumuzun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Həsrət Əzizovdur. Tank heyətində tuşlayıcı vəzifəsində xidmət edən Həsrət hərbçi olmağı və Vətənimizin ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağı özünə övladlıq borcu bilib. O, şərəfli hərbi xidməti və müqəddəs missiyanı qazandığı biliklər, təcrübələr sayəsində vicdanla, uğurla yerinə yetirir. Ömrünü hərb peşəsinə bağlayan çavuş H.Əzizov öz üzərində çalışan, nəzəri, praktiki bilik və bacarıqlarını artırmaqla özünü daim inkişaf etdirən və ona təhkim olunmuş zirehli texnikaya aid yenilikləri öyrənən tankçılarımızdandır. Peşəkar tankçı xidmətində olduqca nikbin, təmkinli, səbrli və məsuliyyətlidir. Döyüşdə vahimə yaradan, güclü səsi, uğultusu ilə düşməni lərzəyə salan bu zirehli texnikanın idarə edilməsində və əməliyyatın uğurla başa çatdırılmasında tank heyətində tuşlayıcı-operatorun da rolu danılmazdır. Həsrətin təlimlərdə qazandığı təcrübə onun daha da inkişaf etməsində, peşəkar tankçı kimi yetişməsində mühüm rol oynayıb.

Əzizov Həsrət Gülbala oğlu Sabirabad rayonunun Nizami kəndində doğulub böyüyüb. Atası Birinci Qarabağ müharibəsində Ağdam, Ağdərə, Tərtər və Füzuli istiqamətlərində gedən ağır döyüşlərdə iştirak edib. Qarabağ müharibəsi veteranıdır. Vətənpərvər döyüşçü ailəsində boya-başa çatan Həsrət atasının olduqca çətin keçən cəbhə yollarından söylədiyi xatirələrini eşidə-eşidə böyüyüb... Atası Gülbala Əzizov Birinci Qarabağ müharibəsi zamanı yenicə formalaşmaqda olan ordumuzun ilk tankçılarından olub. Həsrət döyüşçü atasının yolunu davam etdirib. Ataların döyüş yolu oğullara örnəkdir. Bəli, o da atasının şərəfli döyüş yoluna sadiq qalaraq, 44 günlük Vətən müharibəsi başlayandan 12 gün sonra 2020-ci il oktyabrın 8-də Cəbrayıl, Qubadlı istiqamətlərində gedən ağır döyüşlərə girib. Oktyabrın 19-da Qubadlı uğrunda gedən döyüşlər zamanı ağır yaralanıb. Əslən Yardımlının Kürəkçi kəndindən olan "Azərbaycan Bayrağı" ordenli tank komandiri baş leytenant Valeh Məmiyev şəhid olub. Sürücü-mexanik müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Kənan İsgəndərov müharibə əlilidir. Müharibədən sonra H.Əzizov Türkiyə və Kuba respublikalarına göndərilərək, müalicələr alıb sağalır, Vətənə geri dönür. İgid tankçı hərbi xidmətinə uğurla davam edir. Bu gün də ona təhkim olunmuş zirehli texnikanı peşəkarcasına idarə etməyi bacarır. Qazandığı döyüş təcrübəsini və sənətinin sirlərini gənc tankçılara böyük həvəslə öyrədir.



Tuşlayıcı-operator müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Həsrət Əzizovun sinəsində "İgidliyə görə", "Cəbrayılın olunmasına görə" və "Qubadlının olunmasına görə" medalları parlayır. Yeniliklərə daim açıq olan, özünü inkişaf etdirən ordumuzun igid tankçısı Həsrətə Vətənə müqəddəs xidmətində uğurlar arzulayırıq.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# 44 günə dəyişən reallıqlar

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi Azərbaycan xalqının tarixində dönüş nöqtəsi olmaqla yanaşı, bütövlükdə Cənubi Qafqaz regionunda hərbi, siyasi və geostrateji reallıqları kökündən dəyişdirdi. Uzun illər işğal altında olmuş torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası və beynəlxalq hüququn təmin olunması ilə nəticələnən bu savaş, eyni zamanda, müasir dövrün ən effektiv hərbi əməliyyatlarından biri kimi tarixə düşdü.

2020-ci il sentyabrında Ermənistan silahlı qüvvələrinin yenidən ərazilərimizdə genişmiqyaslı təxribatı uzun illər işğaldakı torpaqlarımızın azad edilməsini bir daha açılmaz etdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə rəşadətli Azərbaycan Ordusu əkshücum əməliyyatına başladı.



Müharibənin ilk günlərindən etibarən Azərbaycan Ordusu yüksək döyüş hazırlığı, dəqiq planlama və müasir texnologiyaların tətbiqi ilə düşmən üzərində strateji üstünlük qazandı. Xüsusilə pilotsuz uçuş aparatlarının (PUA) effektiv istifadəsi, kəşfiyyat və zərbə imkanlarının vəhdəti düşmənin müdafiə xətlərinin qısa müddətdə iflic vəziyyətə düşməsinə səbəb oldu. 44 günlük müharibədə Azərbaycan Ordusu yüksək döyüş bacarığı göstərərək, düşmənə sarsıdıcı zərbələr vurdu, onların hərbi texnikalarını və canlı qüvvəsini məhv etdi. Azərbaycan əsgərinin gücünə tab gətirməyən Ermənistan ordusu silah-sursatlarını və döyüş texnikasını ataraq qaçmağa məcbur oldu. Düşmənin atıb qaçdığı həmin texnikalar bu gün Bakının Qənimətlər Parkında sərgilənir.

44 gün davam edən döyüş əməliyyatları nəticəsində Azərbaycan Ordusu qəhrəmanlıq nümunələri göstərərək torpaqlarımızı işğaldan azad etdi və xalqımıza tarixi Zəfərin sevincini yaşatdı. Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhərinin azad edilməsi müharibənin taleyini həll edən əsas mərhələlərdən biri oldu. 2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında üçtərəfli Bəyanat imzalandı. Tərəflər arasında imzalanan bu Bəyanat regionda sülhün və sabitliyin dayanıqlı olması üçün mühüm əsaslar yaratdı.

Vətən müharibəsində qazanılan tarixi Zəfər həm hərbi sahədə, həm də siyasi və diplomatik müstəvidə Azərbaycanın gücünü və qətiyyətini nümayiş etdirdi. Prezident İlham Əliyevin yürütdüyü müdrik və prinsipial siyasət nəticəsində ölkəmiz beynəlxalq aləmdə öz mövqeyini daha da möhkəmləndirdi.

Müharibədən sonra Cənubi Qafqazda yeni təhlükəsizlik sistemi formalaşmağa başladı. Azərbaycan regionda söz sahibi olan faktora çevrildi. Yaranmış reallıqlar region ölkələri üçün yeni əməkdaşlıq imkanları açdı, eyni zamanda, davamlı sülhün təmin olunması üçün zəmin yaratdı. Regional əməkdaşlıq platformaları nəqliyyat və kommunikasiya xətlərinin açılması istiqamətində həyata keçirilən zəruri islahatlar nəticəsində regionun iqtisadi və strateji əhəmiyyəti daha da gücləndirildi.

Xalqımız tarixi Zəfərə nail olduqdan sonra azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işlərinə start verildi. Belə ki, dağıdılmış şəhər və kəndlərin yenidən qurulması, infrastrukturun bərpası dövlətin prioritet istiqamətlərindən biri oldu. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr regionun iqtisadi dirçəlişinə xidmət etdi. "Ağıllı kənd" konsepsiyasının tətbiqi, müasir texnologiyaların istifadəsi və yeni yaşayış məntəqələrinin qurulması Azərbaycanın gələcəyə yönəlmiş inkişaf modelinin bariz nümunəsidir.

Azərbaycan dövləti tərəfindən həyata keçirilən "Böyük Qayıdış" Proqramı çərçivəsində Qarabağa qayıdış mərhələli şəkildə həyata keçirilir. Bu proses milli kimliyin və tarixi ədalətin bərpasını təmin edən sosial bir layihədir. Artıq keçmiş məcburi köçkünlər öz doğma yurd-yuvalarına qayıdırlar. Onlar Qarabağda öz ocaqlarının istisini duyur və yeni həyata başlayırlar. Dövlətin böyük dəstəyi ilə müasir evlər, xəstəxanalar və digər sosial obyektlər bu qayıdışı davamlı və dayanıqlı edir.

44 gün davam edən Vətən müharibəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qətiyyətli siyasətini, dəmir iradəsini, Azərbaycan xalqının milli birliyini və şanlı Azərbaycan Ordusunun döyüş qabiliyyətini, şücaətini bütün dünyaya nümayiş etdirdi.

Bu gün Azərbaycan həm qalib ölkə, həm də regionda sülhün, sabitliyin və inkişafın əsas təminatçısı kimi çıxış edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi layihələr nəticəsində doğma Qarabağımız dirçəlir, azad olunmuş ərazilərimizdə həyat yenidən canlanır və Azərbaycan gələcəyə inamla addımlayır.

**Kifayət ƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

---

(Əvvəli 1-ci səhifədə)

*Görkəmli şəxsiyyətlər*

# İstiqlal şəhidi general-mayor İbrahim ağa Usubov

Bu döyüşlərdə göstərdiyi igidlik və şücaətə görə 1915-ci il avqustun 1-də ona "polkovnik" rütbəsi verilib. Həmin ilin 9 sentyabrında polkovnik İ.Usubov 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif edilib.

Onun müharibədə göstərdiyi şücaətləri haqqında "Kaspi" qəzetinin 26 fevral 1916-cı il sayında Ceyhun bəy Hacıbəyli yazıb: "Yüz iyirmi ikinci Tambov süvari alayının zabiti, 3-cü dərəcəli "Müqəddəs Vladimir" (1916), 2-ci dərəcəli "Müqəddəs Stanislav", 2-ci dərəcəli "Müqəddəs Anna" ordenli kavaler İbrahim ağa Usubov bu alaya təyin olunandan sonra "polkovnik" rütbəsi almışdır. 1914-cü il oktyabrın 14-də Mizinets kəndi ətrafındakı yüksəkliyə hücum zamanı İbrahim ağa batalyona komandirlik edərkən düşməni iki cərgə səngərdən vurub çıxarmış və üç gün bu yüksəkliyi avstriyalıların əks-hücumlarından qoruyub saxlamışdır".

8 oktyabr 1916-cı ildə İbrahim ağa Usubov 28-ci Piyada Diviziyasının 112-ci Ural Piyada Alayının komandiri təyin edilib. 1917-ci ilin yanvarında o, 133-cü Piyada Diviziyasının briqada komandiri təyin edilib. Həmin il iyulun 1-də İbrahim ağa Usubov "general-mayor" rütbəsinə yüksəlib.

1917-ci il dekabrın əvvəllərində Qafqaz Cəbhəsinin qərargahı ayrı-ayrı hissələrin, əsasən Yelizavetpolda yerləşən 219-cu Piyada Ehtiyat Alayının milliləşdirilməsini təklif edib və bunun əsasında Müsəlman Korpusunun yaradılması planlaşdırılıb. Zaqafqaziya Komissarlığı bu təklifi dəstəkləyib və 18 dekabr 1917-ci ildə (bəzi mənbələrə görə 11 dekabr) Müsəlman Korpusunun da daxil olduğu yeni bir ordunun yaradılması haqqında fərman verib. Ordunun formalaşmasına Qafqaz Cəbhəsinin Baş Komandanı general M.A.Prjevalskinin 155 nömrəli əmrinə uyğun olaraq başlanılıb. General Əlağa Şıxlinski yeni yaradılan Müsəlman (Azərbaycan) Korpusunun komandiri təyin edilib. Korpus, ümumiyyətlə 1918-ci il aprelin sonu mayın əvvəlində formalaşdırılıb. Həmin vaxtda Vətənə qayıdan general-mayor İ.Usubov orduya çağırılıb, o, yaradılmaqda olan korpusun 2-ci Piyada Diviziyasının komandiri təyin edilib. (26 iyun 1918-ci ildə Nazirlər Şurasının qərarı ilə Müsəlman Korpusu Əlahiddə Azərbaycan Korpusu adlandırılıb).

O, Əlağa Şıxlinski, Səməd bəy Mehmandarov, Əbdülhəmid bəy Qaytabaşı, Cavad bəy Şıxlinski və başqa hərbçilərlə birgə Azərbaycan Demokratik Hökuməti Milli Ordusunun təşkilinə başlayıb. 1918-ci ilin aprelində Gəncə Praporşiklər Məktəbi fəaliyyətə başlayıb. Burada azərbaycanlı gənclər təhsil alıblar. Bir il sonra həmin məktəb Bakıya köçürülüb və Azərbaycan Hərbiyyə Məktəbi adlandırılıb. 1919-cu il yanvarın 9-da milli hökumət xalqına sidq ürəklə xidmət etdiyinə görə İbrahim ağa Usubovu Hərb naziri yanında tapşırıq generalı vəzifəsinə təyin edib.



ADR hökuməti 1919-cu ilin noyabrında İbrahim ağanı Azərbaycan Ordusu üçün hərbi ləvazimatlar və hərbi geyimlərin alınması məqsədilə İtaliyaya ezam edib (İbrahim ağa Usubovun xarici ölkəyə ezam olunması təsadüfi deyildi. O, fransız, ingilis, alman və polyak dilini mükəmməl bilirdi). Bu məqsədlə general-mayor İbrahim ağa Usubov Hərbi nazir, tam artilleriya generalı Səməd bəy Mehmandarovun tapşırığına əsasən, İtaliyanın Genuya, Milan, Triento, Turin və Veronadakı şirkətləri ilə danışıqlar aparıb, nəhayət hərbi ləvazimat hazırlayan "Kiano Qella Komp" şirkəti ilə 1919-cu ilin 23 noyabr tarixində Roma şəhərində Azərbaycan Ordusu üçün 25 min dəst, yüksək rütbəli zabitlər üçün isə əlavə 500 dəst hərbi geyim (piyada botinkası, üst geyim mundir dəsti, ağ sarğı, qış paltosu və ayaq sarğısı) hazırlanması haqqında müqavilə imzalayıb.

1920-ci ilin aprelində Qızıl Ordu Azərbaycana gələndə Əlağa Şıxlinski, İbrahim ağa Vəkilov, Səməd bəy Mehmandarov, Əbdülhəmid bəy Qaytabaşı, Firudin bəy Vəzirov, İbrahim ağa Usubov və bütün azərbaycanlı hərbçilərə, generallara ilk günlər toxunmayıblar. Əvvəlcə "bundan sonra Qızıl Orduda xidmət edəcəksiniz" desələr də, çox keçmədən Milli Ordunun zabitləri həbs olunub. İbrahim ağa Usubovu və onunla bərabər on iki azərbaycanlı general və zabiti 1920-ci il iyunun 16-da gecə ilə Nargin adasına aparıb güllələyiblər.

Əlağa Şıxlinski və Səməd bəy Mehmandarov isə ayrı kamerada olub. Onların Nərimanova göndərdikləri məktub ünvanına çatıb və xilas olublar. Lakin Qızıl Ordunun tərkibində olan terrorçu-daşnakların təxribatçı əməllərindən ehtiyat edən N.Nərimanov 1920-ci il avqustun 1-də Ə.Şıxlinskini və S.Mehmandarovu Moskvaya göndərib.

Məhəmməd Əmin Rəsulzadə 1923-cü ildə yazdığı "Azərbaycan Cümhuriyyəti: keyfiyyəti-təşəkkülü və indiki vəziyyəti" kitabında İbrahim ağa Usubovu Azərbaycanın istiqlal şəhidi adlandırıb.

İbrahim ağanın atası Musa ağa Usubov və əmisi Süleyman ağa Usubov da hərbçi olub. Onlar XIX əsrin əvvəllərində Azərbaycan türklərindən təşkil olunan Müsəlman Süvari Alayında xidmət ediblər. Musa ağa Molla Yusif oğlu Usubov hətta döyüşlərdə göstərdiyi şücaət və igidliyə görə 3-cü dərəcəli "Müqəddəs Stanislav" ordeninə layiq görülüb. Musa ağa "poruçik" rütbəsində, 22 iyul 1891-ci ildə istefaya çıxıb və dövlət ona gümüş pulla 97,50 rubl təqaüd ayırıb. Ancaq təqaüdü almaq ona qismət olmayıb. Təxminən 10 gün sonra - avqustun 1-də Musa ağa dünyasını dəyişib.

İbrahim ağa Usubov general Əlağa Şıxlinski ilə bacanaq olub. O, 1910-cu ildə Tiflisdə yaşayan qohumu, Zaqafqaziya müftisi Mirzə Hüseyn əfəndi Qayıbzadənin kiçik qızı Gövhər xanımla ailə həyatı qurub. Azərbaycanın Əməkdar incəsənət xadimi, professor Nigar xanım Usubova kimi istedadlı övladları olub.

İbrahim ağa Usubov döyüşlərdə göstərdiyi şücaətlərə və xidmətdə fərqləndiyinə bir çox orden, medal və mükafatlara layiq görülüb. Bunlardan üzərində "İgidliyə görə" yazısı olan 4-cü dərəcəli "Müqəddəs Anna", 4-cü dərəcəli "Müqəddəs Vladimir" (qılınc və yayla), 3-cü dərəcəli "Müqəddəs Stanislav" (qılınc və yayla), 3-cü dərəcəli "Müqəddəs Anna", 2-ci dərəcəli "Müqəddəs Stanislav", 2-ci dərəcəli "Müqəddəs Anna" (qılıncla), 4-cü dərəcəli "Müqəddəs Georgi", 3-cü dərəcəli "Müqəddəs Vladimir" (qılıncla), 2-ci dərəcəli "Müqəddəs Stanislav" (qılıncla), 3-cü dərəcəli "Müqəddəs Anna" (qılınc və yayla) ordenini və İmperator Əlahəzrətlərinin "Ən yüksək lütf" mükafatını göstərmək olar.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu: Azərbaycan xalq eposlarında milli qəhrəmanlıq nümunələri ("Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanları əsasında).**

**Suallar:**

1. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli qəhrəmanlıq abidəsidir.
2. Koroğlu Azərbaycan xalqının qəhrəmanıdır.

### "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli qəhrəmanlıq abidəsidir

Azərbaycan mədəniyyətinin ulu qaynağı olan "Kitabi-Dədə Qorqud" təkcə öz yarandığı çağda deyil, eyni zamanda, müasir dövrümüzdə də milli mənəviyyatımızın, ədəbiyyat və incəsənətimizin ideya bünövrəsi olaraq qalır. Azərbaycan tarixinin bütün milli-mənəvi dəyərlərini özündə cəmləşdirən bu ulu abidə elə bir enerji mənbəyidir ki, çağdaş milli mənəviyyat və mədəniyyət tariximizi onsuz təsəvvür etmək mümkün deyildir. "Kitabi-Dədə Qorqud"un milli tariximizin dünəni və bugünkü rolunu müdrikcəsinə "Milli varlığımızın mötəbər qaynağı" kimi səciyyələndirən Ulu Öndər Heydər Əliyevin söylədiyi kimi: "Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli-mənəvi dəyərlərimiz "Kitabi-Dədə Qorqud" eposunda öz əksini tapmışdır. Bu epos bizim milli sərvətimizdir və hər bir azərbaycanlı onunla haqlı olaraq fəxr edə bilər. Dastanın məzmununu, mənasını, onun hər kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. Bu bizim ana kitabımızdır və gənclik bu kitabı nə qədər dərindən bilsə, millətini, xalqını, Vətənini, müstəqil Azərbaycanı bir o qədər də çox sevəcəkdir".

Erkən orta əsrlərdə (VI-XI əsrlər) Azərbaycanda baş verən ictimai-siyasi hadisələr öz bədii əksini şifahi və yazılı ədəbiyyatda tapmışdır. Həmin dövrdə şəhərlərdə və oturaq əhali arasında daha çox sehrli nağıllar və dini rəvayətlər yayıldığı halda, maldarlıqla məşğul olan əhali arasında aşıq yaradıcılığı inkişaf etmişdi. Ozanlar el-el, oymaq-oymaq gəzərək xalq qəhrəmanlarının adına dastanlar qoşur və onları təbliğ edirdilər. Eyni zamanda onlar xalqın məsləhətçisi, bilicisi hesab olunurdular. Ən məşhur ozanları xalq hörmətlə "dədə" adlandırırdı. "Kitabi-Dədə Qorqud" oğuz türk tayfalarının dilində Dədəm Qorqudun kitabı adlandırılırdı.

Qədim oğuz türklərinin məişətini, etik-estetik düşüncələrini əks etdirən qəhrəmanlıq eposu bu günümüzə şifahi və yazılı şəkildə gəlib çatıb. Azərbaycan qəhrəmanlıq eposunun böyük abidələrindən olan, Azərbaycan ədəbiyyatı tarixində şifahi xalq yaradıcılığının ana dilində qələmə alınmış ilk ən böyük ədəbi abidəsi "Kitabi-Dədə Qorqud"dur. "Kitabi-Dədə Qorqud" dastanları ilk dəfə elmə məlum olmayan şəxs tərəfindən 1052-ci ildə qələmə alınmışdır. Dastan təxminən beş əsr şifahi təzahür dövrü yaşamış, bundan sonra XI əsrdə yazıya alınıb. Dastanda bəhs edilən hadisələrin ərəb işğalından əvvəlki (V-VII əsrlər), müəyyən dövrün isə ərəb işğalı (VII-IX əsrlər) ərəfəsinin, bəzi boyların ondan da xeyli əvvəl (V əsr) olmaları ehtimal edilir. Bu gün elmə məlum olan "Kitabi-Dədə Qorqud" əlyazmalarının Drezden, Vatikan və Berlin kitabxanalarında saxlanılan nüsxələri məlumdur. Həmin əlyazmalarda oğuz bəylərinin bahadırlıq və cəngavərlik rəşadətlərini düzüb qoşan və milli yaddaşa verən Dədə Qorqudun peyğəmbərimiz Həzrəti Məhəmmədlə (s.a.v.) bir dövrdə yaşadığı göstərilir.

"Kitabi-Dədə Qorqud" dastanında türk etnik qrupuna daxil olan oğuzların qəbilə və tayfa münasibətləri dövrünün hadisələri, oğuz tayfalarının dövlətçilik və idarəçilik ənənələri, Vətən, torpaq uğrundakı savaşları, sivil mədəniyyətə doğru tarixi inkişafı əks etdirilir. Dastanda təsvir olunan hadisələr xanlar xanı Bayandır xanın başçılıq etdiyi, iyirmi dörd sancağı (el, vilayət) birləşdirən Oğuz dövlətində cərəyan edir. Dövlətçilik düşüncəsi kontekstində yanaşmada "Kitabi-Dədə Qorqud" qəhrəmanlıq eposudur, özü də bir cəngavər, bir igid haqqında yox, bütöv bir xalqın qəhrəmanlığını özündə cəmləşdirən bir eposudur. Onun ən böyük ideyası baş sərkərdədən tutmuş böyükdən kiçiyə kimi bütün qəhrəmanlarının doğma torpaqlarını qorumaq uğrunda canlarından keçməyə daim hazır olduqlarını göstərməkdir.

"Kitabi-Dədə Qorqud" həm də bizim etika kitabımız, əxlaq kodeksimizdir. Böyüyə hörmət, ata-anaya məhəbbət iman və etiqad, namus və qeyrət, ailəyə, torpağa, Vətəninə sədaqət - bu insani keyfiyyətlər, mənəvi məziyyətlər Qorqud övladlarının qanına ana südü ilə, ata nəfəsi ilə birlikdə daxil olur və son mənzilə qədər də onlarla birlikdə gedir. Dədə Qorqud dünyasındakı milli dəyərlər, stereotiplər, rituallar sistemi, əslində, hər bir azərbaycanlının mentalitetində milli və ümumbəşəri dəyərlərin yerinin müəyyənləşdirilməsi də Dədə Qorqudu etik prinsiplərindən çıxış etməklə gerçəkləşir.

"Kitabi-Dədə Qorqud" Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsidir. "Oğuz tayfaları dilindən Dədəm Qorqud kitabı" adlanan Drezden nüsxəsi bir müqəddimə və 12 boydan Vatikan nüsxəsi isə eyni müqəddimə və 6 boydan ibarətdir. Bu isə onu göstərir ki, hər iki nüsxə daha qədim bir nüsxədən köçürülüb.

Qafqazda olmuş alim və səyyahlar "Kitabi-Dədə Qorqud"dan dəfələrlə bəhs ediblər. Adam Oleari adlı səyyah 1638-ci ildə Dərbənddə azərbaycanlılardan Dədə Qorqud hekayətlərini eşitdiyini, Qazan xanın arvadı Burla xatunun, eləcə də Dədə Qorqudun özünün burada qəbirləri olduğunu göstərib. Evliya Çələbi isə "Səyahətnamə"sində Dərbənddə Dədə Qorqudun qəbri olduğunu və şirvanlıların bu qəbrə böyük ehtiram və etiqad bəslədiklərini qeyd edib.

Azərbaycan xalq bədii təfəkkürünün abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanlarında xalq dilinin incəliklərindən, atalar sözlərindən, məsələlərindən məharətlə istifadə olunmuşdur. "Kitabi-Dədə Qorqud" Azərbaycan dilinin tarixini öyrənmək baxımından zəngin mənbədir.

Dastandakı hadisələrin əksəriyyəti Dəmirqapı Dərbənd, Bərdə, Göyçə gölü, Gəncə, Dərəşam, Əlincə, Qaradağ, Qaraçuq dağı və s. yerlərdə cərəyan edir. "Kitabi-Dədə Qorqud"da Dədə Qorqud bu dastanların yaradıcısı, həm də iştirakçısı kimi təqdim edilir. Bayat elindən çıxan bu bilicinin oğuzun müşkül məsələlərini həll edərək gələcəkdən xəbər verdiyi göstərilir. Azərbaycanda Dədə Qorqudun bütün əşyalara ad verməsi barədə rəvayət mövcuddur. "Kitabi-Dədə Qorqud" boylarında da Dədə Qorqud şücaət göstərən igidlərə ad qoyur, çətin zamanlarda xalqın köməyinə gəlir, müdrik məsləhətləri ilə onlara yol göstərir.

"Kitabi-Dədə Qorqud" boyları müxtəlif hadisələrdən və ayrı-ayrı oğuz igidlərinin qəhrəmanlığından bəhs etsə də, onlar bir-biri ilə bağlı olub vahid dastan təsiri bağışlayır. Dastanlarda oğuzun yaşlı (Qazan xan, Dirsə xan, Qazılıq Qoca, Bəkil, Baybecan, Aruz, Qaragünə) və gənc (Beyrək, Uruz, Basat, Yeynək, Qarabudaq, Əmran, Səgrək, Buğac) nəslə mənsub qəhrəmanlarından söhbət açılır. Qəhrəmanlıq ruhu abidənin əsas qayəsini təşkil edir. Dastanlarda igidlər yalnız öz şücaəti ilə ad-san qazanırlar. Qəhrəmanlıq göstərməyən cavanlara ad verilmir.

"Kitabi-Dədə Qorqud"un qəhrəmanlıq ruhu Vətən məhəbbəti ilə ayrılmaz vəhdətdədir. Oğuz bəyləri doğma yurdlarını qorumaq naminə hər cür fədakarlığa hazır igidlərdir. Oğuz igidləri Vətən, xalq, el yolunda öz canlarını düşünmədən fəda edən, öz şəxsi mənafeyini cəmiyyətin mənafeyinə hər an qurban verməyə hazır qəhrəmanlardır. Onların arasında məqsəd birliyi, ümumi mənafe uğrunda düşmənə qarşı birgə mübarizə ruhu hakimdir. Dastanlarda xəyanət, həsəd, qorxaqlıq, fərarilik və s. kimi mənfiliklər kəskin tənqid olunur.

Eposda oğuz bəyləri ilə mübarizə aparan düşmən qəbilələri də təsvir edilir. Oğuzların düşmənə hücumları yalnız təcavüzkarlardan intiqam almaq məqsədi daşıyır. Qazan xan vuruş meydanında "qaçanı qovmur", "aman diləyəni öldürmür".

"Kitabi-Dədə Qorqud" yarandığı dövrün adət-ənənələri, köçəri həyat tərzi və s. haqqında tarixi-etnoqrafik məlumatlarla zəngindir. Burada etik davranış normaları, ailə-məişət məsələləri öz əksini tapmışdır: oğul ata sözünü iki eləmir, ağsaqqal qocaya, ağbirçək qarıya hörmətsizlik bağışlanılmaz günah sayılır, yoldaşını döyüş meydanında qoyub qaçanlar amansız cəzalandırılır və s.

"Kitabi-Dədə Qorqud" eposunun qəhrəmanlıq ruhu qadın obrazlarında və onların davranışlarında da aydın görünür. Dastanda təsvir edilən mərd, əyilməz qadınlardan Qazan xanın qadını Burla xatun igidlikdə ərindən geri qalmır, döyüş meydanında hünər göstərir. Başqa qadın obrazları da (Banuçiçək, Selcan xatun və b.) namuslu, tədbirli, təmkinli, ağıllı və dözümlüdürlər.

"Kitabi-Dədə Qorqud" dastanlarının Azərbaycan xalqının ictimai-siyasi və mədəni həyatında mühüm rolunu nəzərə alan Ulu Öndər Heydər Əliyev dastanların dünya miqyasında təbliği, əks etdirdiyi vətənpərvərlik ideyalarının genişləndirilməsi üçün "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illiyi haqqında 20 aprel 1997-ci ildə fərman imzalamışdır. 2018-ci ilin noyabr ayının 28-də "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" çoxmillətli mədəniyyət nümunəsi kimi YUNESKO-nun Bəşəriyyətin mədəni qeyri-maddi İrsinin Reprezentativ siyahısına daxil edilib.

### Koroğlu Azərbaycan xalqının qəhrəmanıdır

Dilimizin, ədəbiyyatımızın, tariximizin, ümumən mədəniyyətimizin ən nadir incilərindən, şah abidəmiz "Kitabi-Dədə Qorqud"dan sonra yaranan ikinci böyük qəhrəmanlıq eposu "Koroğlu"dur. Dastanda xalqın həyatı ilə bağlı tarixi hadisələrdən, onun haqq-ədalət və azadlıq uğrunda apardığı mübarizədən bəhs edilir. XVI əsrin sonu - XVII əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi hadisələr, Səfəvilər dövləti və Osmanlı imperiyası arasında müharibələr Azərbaycan xalqının maddi rifahının ağırlaşmasına və xalq kütlələrinin narazılıqlarına səbəb olurdu. XVI əsrin sonunda Şeyx Cəlalın (Cəlalilər hərəkatı) başçılığı ilə Anadoluda vüsət alan kəndli hərəkatı XVII əsrin əvvəllərində Azərbaycana da yayıldı. Müxtəlif tayfalar içərisindən çıxmış Cəlali dəstə başçılarından ən məşhuru Azərbaycan türkü Koroğlu idi. Rəvayətə görə Koroğlunun əsl adı Rövşən olub. Həsən xan tərəfindən atası Alı kişinin gözlərinin çıxarılması Rövşəndə zülmə və haqsızlığa qarşı dərin nifrət oyadır. O, haqsızlığa, ədalətsizliyə son qoymaq, məzlumların intiqamını almaq üçün qılınca sarılıb dağlara, Çənlibel (Gədəbəy rayonun Qalakənd ərazisi) qalasına çəkilir. Ağa, bəy, xan zülmündən cana doymuş, xoşbəxt həyat arzusu ilə yaşayan yoxsul gənclərin üz tutduğu Çənlibel azadlığın hökm sürdüyü yurda, Rövşən isə Koroğluya çevrilir.

Şifahi xalq ədəbiyyatında Koroğlunun adı ilə bağlı hadisələr əfsanələşdirilərək öz əksini "Koroğlu dastanı"nda tapmışdır. Dastanda Naxçıvan ərazisi, Salmas, Xoy Koroğlunun ən çox fəaliyyət göstərdiyi yerlərdəndir. Dastanın bir çox variantlarında Koroğlunun iqamətgahı olan Çənlibel qalasının Naxçıvanda və Makuda yerləşdiyi göstərilir. Koroğlu mərdliyi, ədalətli olmasıyla və igidliyi ilə xalq kütlələrinin hədsiz məhəbbətini qazanmışdı. Koroğlunun başına yığışan, ətrafında sıx birləşən dəlilər - silah yoldaşları üçün ümumi olan cəhətlər az deyil; mərdlik, qorxmazlıq, haqqın, ədalətin tərəfində durmaq, dostluqda sədaqətli olmaq, düşmənə nifrət və s. onları birləşdirən cəhətlərdəndir. Bu igidləri bir-birindən fərqləndirən xüsusiyyətlər də çoxdur. Dəli Həsən təmkinli, tədbirli olması ilə seçilir. Eyvaz səmimiliyi ilə dəlilərin sevimlisi olur. Bəlli Əhməd təvazökarlığı, Dəmirçioğlu isə səbirli və dözümlülüyü ilə diqqəti cəlb edir.

Tədqiqatçı alimlər tərəfindən Azərbaycan və Gürcüstan fondlarında saxlanılan naməlum müəlliflərin əlyazmalarında Koroğlunun ayrı-ayrı şeir və qoşmaları aşkar edilmişdir. Koroğlunun silahdaşlarından ayrı-ayrı dəstə başçıları - Dəli Həsən, Giziroğlu Mustafa bəy, Kosa Səfər, Tanrıtanımaz, Abaza paşa, habelə dastandakı mənfi personajların bir çoxu tarixdə yaşamış şəxslər hesab olunur. Bütün bunlar qəhrəman cəsarətini, xalq müdrikliyini, ədaləti özündə birləşdirən, nəğməkar, aşıq sənətinin bilicisi Koroğlunun real tarixi şəxsiyyət olduğunu deməyə əsas verir.

Azərbaycanda "Koroğlu" dastanının ilk nəşri 1913-cü ilə təsadüf edir. Bundan başqa, dastanın 1927, 1929, 1941, 1949, 1956, 1975, 1983 və 1997-ci il nəşrləri də mövcuddur.

(Ardı 8-ci səhifədə)

# Müdafiə Nazirliyi Hava Hücumundan Müdafiə ixtisası üzrə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul elan edir

Müdafiə Nazirliyi Hava Hücumundan Müdafiə ixtisası üzrə müddətdən artıq həqiqi hərbi xidmətə sənəd qəbulu elan edir. Sənəd qəbulu 15 may tarixinədək (bayram və qeyri-iş günləri daxil) elektron qaydada, eyni zamanda Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunda (Ünvan: Bakı şəhəri, Xətai rayonu, Polad Həşimov küçəsi 9a) və Əlahiddə Ümumqoşun Ordunun Təlim və Tədris Mərkəzində (Ünvan: Naxçıvan şəhəri, "Naxçıvan-1" hərbi şəhərciyi) saat 09:00-dan 17:00-dək həyata keçiriləcəkdir (şənbə, bazar və bayram günləri istisna olmaqla). Namizədlərin yuxarıdakı üsullardan hər hansı biri vasitəsilə sənədlərini təqdim etmələri yetərli hesab olunur.

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuların hazırlığı kursu"na ən azı ümumi orta təhsilli, müddətli həqiqi hərbi xidmətini başa vurmuş 35 yaşınadək kişi cinsli hərbi vəzifəlilər (zabit, gizir, miçman hərbi rütbəsi olanlar istisna olmaqla), eləcə də Silahlı Qüvvələrdə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət etmiş ("Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin 156-cı maddəsinin "a" bəndinə (xidmət müddəti başa çatdığına görə), "q" bəndinə (ştat ixtisarına görə) əsasən ordu sıralarından ehtiyata buraxılmış) 40 yaşınadək kişi cinsli hərbi vəzifəlilər qəbul edilir.

Elektron qaydada müraciət etmək istəyən namizədlər mmu.edu.az saytının "Təhsil müəssisələrinə qəbul" bölməsindəki "Çavuş hazırlığı (MAHHXHQ)" hissəsinə keçid edərək elektron sənəd qəbulu portalından müvafiq sənədlərlə tanış ola və müraciət edə bilər.

Kursa qəbul olmaq üçün müraciət etmiş namizədlər hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədi ilə qəbul komissiyası tərəfindən Müdafiə Nazirliyinin müvafiq tibb müəssisələrinə göndərilir. Hərbi Həkim Komissiyasının qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər müsabiqə mərhələsinə buraxılırlar.

Namizədlər müsabiqə mərhələsində fərdi-psixoloji və fiziki hazırlığı, ümumi bilik səviyyəsi, hərbi uçot və mülki ixtisası (olduğu halda), peşə səriştəsi nəzərə alınmaqla ixtisas seçimi imkanı yaradılaraq kursa qəbul edilirlər.

**Xidmət yerləri:**
- Bakı şəhəri;
- Sumqayıt şəhəri;
- Gəncə şəhəri;
- Naxçıvan MR;
- Mingəçevir şəhəri;
- Kürdəmir rayonu.

**Tələb olunan sənədlər:**
- kursa qəbul olunmaq barədə ərizə;
- anket forması;
- tərcümeyi-hal (1 nüsxədə);
- təhsil haqqında sənədin surəti (1 nüsxədə);
- doğum haqqında şəhadətnamənin surəti (1 nüsxədə);
- yaşayış yeri və ailə tərkibi haqqında arayış (1 nüsxədə);
- əlavə peşə və ya ixtisasınız varsa təsdiqedici sənədlərin surəti (diplom, sertifikat, şəhadətnamə və s.);
- şəxsiyyət vəsiqəsinin surəti və ya yeni nəsil şəxsiyyət vəsiqəsindən çıxarış (1 nüsxədə);
- sürücülük vəsiqəsinin surəti (əgər varsa, 1 nüsxədə);
- nikah haqqında şəhadətnamənin surəti (evli olduqda, 1 nüsxədə);
- həyat yoldaşının və uşaqların şəxsiyyət vəsiqələrinin surəti (1 nüsxədə);
- rəngli fotoşəkil (baş geyimsiz, anfas, 6 ədəd 3x4 sm, 2 ədəd 4.5x6 sm və 3 ədəd 9x12 sm);
- hərbi biletin bütün vərəqlərinin surəti (notarial qaydada təsdiq olunmuş, 1 nüsxədə);
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

**Qeyd**: Namizədlər ərizə və anket formasını, həmçinin tərcümeyi-hal nümunəsini Milli Müdafiə Universitetinin rəsmi saytının (mmu.edu.az) "Təhsil müəssisələrinə qəbul" bölməsindən "Çavuş hazırlığı" seçimini etdikdən sonra "Sənədlər" bölməsinə daxil olaraq əldə edə bilərlər.

**İmtiyazlar:**

**Kurs müddətində:**
- Əşya, ərzaq, tibbi, yaşayış yeri (yataqxana), həmçinin aylıq pul təminatı.

**Xidmət müddətində:**
- kiçik çavuş, çavuş, baş çavuş rütbəsinin verilməsi;
- xidməti mənzil və ya müvəqqəti yaşayış sahəsinin kirayəsi üçün pul kompensasiyasının təmin edilməsi;
- il ərzində birdəfəlik verilən maddi yardım, növbəti məzuniyyətə çıxarkən əlavə pul təminatı, qüsursuz hərbi xidməti nəzərə alınmaqla əsas vəzifə və rütbə maaşının iki misli həcmində birdəfəlik pul mükafatı;
- ailə üzvləri üçün güzəştli tibbi təminat;
- güzəştli ipoteka krediti;
- Azərbaycan Ordusunda 20 təqvim ili və daha çox qüsursuz xidmət etdikdə dövlət vəsaiti hesabına mənzillə təmin olunması;
- karyerada inkişaf.

**Qeyd:** Müddətdən artıq həqiqi hərbi xidmətdən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 156-cı maddəsinin "e" bəndinə (xidmətə uyğunsuzluğa görə) müvafiq olaraq ehtiyata buraxılmış hərbi qulluqçuların və məhkumluğunun ödənilməsindən asılı olmayaraq məhkum olunmuş hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etməmələri xahiş olunur.

**Əlaqə məlumatları:**
Telefon: - (012) 404-18-45
Telefon: - (036) 545-00-11 (Naxçıvan)
Çağrı mərkəzi: - *0811
E-poçt: admission@mmu.edu.az
Ünvan: Bakı şəhəri, Qızıl Şərq 13. AZ1065

# ƏÜO müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyənlərin qəbulunu elan edir

Əlahiddə Ümumqoşun Orduda (ƏÜO) müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan vətəndaşların qəbuluna başlanılır.

Müddətdən artıq həqiqi hərbi xidmətə sənəd qəbulu **mayın 15-dək** Əlahiddə Ümumqoşun Ordunun Təlim və Tədris Mərkəzində (Ünvan: Naxçıvan Muxtar Respublikası Naxçıvan şəhəri, 1 nömrəli hərbi şəhərcik) həyata keçiriləcəkdir.

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na ən azı ümumi orta təhsilli, müddətli həqiqi hərbi xidmətini başa vurmuş 35 yaşınadək hərbi vəzifəlilər (zabit, gizir, miçman hərbi rütbəsi olanlar istisna olmaqla), eləcə də ixtisasını dəyişmək və ya artırmaq arzusunda olan Silahlı Qüvvələrdə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət etmiş ("Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin 156-cı maddəsinin "a" bəndinə (xidmət müddəti başa çatdığına görə), "q" bəndinə (ştat ixtisarına görə) əsasən ordu sıralarından ehtiyata buraxılmış) 40 yaşınadək hərbi vəzifəli vətəndaşlar qəbul edilir.

**Kursa qəbul üçün tələb olunan sənədlər:**
- kursa qəbul olunmaq barədə ərizə;
- anket forması;
- tərcümeyi-hal (1 nüsxədə);
- təhsil haqqında sənədin surəti (1 nüsxədə);
- doğum haqqında şəhadətnamənin surəti (1 nüsxədə);
- yaşayış yeri və ailə tərkibi haqqında arayış (1 nüsxədə);
- əlavə peşə və ya ixtisasınız varsa təsdiqedici sənədlərin surəti (diplom, sertifikat, şəhadətnamə və s.);
- şəxsiyyət vəsiqəsinin surəti və ya yeni nəsil şəxsiyyət vəsiqəsindən çıxarış (1 nüsxədə);
- sürücülük vəsiqəsinin surəti (olduğu təqdirdə, 1 nüsxədə);
- nikah haqqında şəhadətnamənin surəti (evli olduqda, 1 nüsxədə);
- həyat yoldaşının və uşaqların şəxsiyyət vəsiqələrinin surəti (1 nüsxədə);
- rəngli fotoşəkil (baş geyimsiz, anfas, 6 ədəd 3x4 sm, 2 ədəd 4.5x6 sm və 3 ədəd 9x12 sm);
- hərbi biletin bütün vərəqlərinin notarial qaydada təsdiq olunmuş surəti (1 nüsxədə, kişi cinsli vətəndaşlar üçün);
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

**Müraciətlər qeyd olunan tarixədək saat 09:00-dan 17:00-dək (şənbə, bazar və bayram günləri istisna olmaqla) qəbul olunur.**

**Qeyd:**

1. Müddətdən artıq həqiqi hərbi xidmətdən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 156-cı maddəsinin "e" bəndinə (xidmətə uyğunsuzluğa görə) müvafiq olaraq ehtiyata buraxılmış hərbi qulluqçuların və məhkumluğunun ödənilməsindən asılı olmayaraq məhkum olunmuş hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etməmələri xahiş olunur.

2. "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"nu müvəffəqiyyətlə bitirmiş şəxslərin təyinatı Əlahiddə Ümumqoşun Ordunun ehtiyaclarına uyğun vakant vəzifələrin komplektləşdirilməsi üzrə həyata keçiriləcək.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

**(Əvvəli 7-ci səhifədə)**

Azərbaycanın torpaqlarına olduğu kimi, mədəniyyətinə də iddialı olan ermənilər hətta "Koroğlu"nu da özününküləşdirmək kimi cəfəng xülyalarda olmuşlar. Tarixi bir faktdır ki, ötən əsrin 20-30-cu illərində Azərbaycanda fəaliyyət göstərən Tədqiq və Tətəbbə Cəmiyyəti xətti ilə aparılan ekspediyalar əsasında 1936-cı ildə eposun 20 qoldan ibarət yeni, daha mükəmməl nəşri çapa hazırlanıb. 1936-cı ilin dekabrında müstəntiq E.Qriqoryan tərəfindən həmin əlyazma Ermənistana, "mətndə ermənilərdən oğurlanmış qolları üzə çıxarmaq üçün" rəyə göndərilib. Sonralar həmin qolların bir çoxu ermənilərin düzəlişləri ilə erməni mətbuatında "azərbaycanca və ermənicə çalıb-çağıran erməni aşıqlarından yazıya alınmış nümunələr" kimi nəşr edilib. 1941-ci ildə isə İrəvanda "Koroğlu"nun erməni variantı üzə çıxıb. Nəşrə ön söz yazan erməni tədqiqatçısı X.Samuelyan mətni xeyli təriflədikdən sonra fikrini qısa və lakonik ifadə edib: "...Erməni xalqının "Koroğlu" eposu yoxdur, bu, Azərbaycan aşıqlarının repertuarındakı dastandır". Göründüyü kimi, tarixən türk mədəniyyətinin mənimsəyib saxtalaşdırmağın mahir ustadı olan ermənilər "Koroğlu" eposunu özününküləşdirməkdə "düyünə düşmüşlər". Bu "düyün", əslində, eposun milli mahiyyəti ilə bağlıdır. Çünki hər bir epos onu yaradan xalqın milli həyat, milli düşüncə tərzinin güzgüsüdür, milli şüurunu əks etdirir. Azərbaycan dastanı Azərbaycan xalqının milli şüurunun məhsuludur və onu nə qədər saxtalaşdırmaq istəsən, dastanın hər bir poetik elementi, xüsusilə dastanın ən əlahiddə hadisəsi olan qəhrəman obrazı bütün poetik varlığı ilə Azərbaycan varlığından xəbər verəcəkdir. Bütün bunlar bizə bir daha erməni xislətinin iç üzünü açıb göstərir.

Xalqımızın qəhrəmanlıq ənənələrini əks etdirən xalq ədəbiyyatı nümunələri əsrlərdən keçərək bu gün bizə çatıb və milli-mədəni sərvətimizə çevrilib. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bütün sahələrə olduğu kimi, tariximizə, mədəniyyətimizə də diqqət və qayğı göstərib. Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli sərəncamına əsasən, latın qrafikası ilə ilk növbədə kütləvi nəşr ediləcək Azərbaycan xalq ədəbiyyatı nümunələri arasında "Kitabi-Dədə Qorqud" eposunun 3 cilddə, "Koroğlu" dastanının 2 cilddə çapı nəzərdə tutulub.

Tariximizi, soykökümüzü, mənşəyimizi, məskənimizi müəyyənləşdirən "Kitabi-Dədə Qorqud" eposu və "Koroğlu" dastanı xalqımızın qəhrəmanlıq salnaməsi kimi dəyərli əsərlər Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığın yüksəldilməsində, vətənpərvərlik tərbiyəsində mühüm əhəmiyyətə malik olmuş, əzəli və əbədi torpaqlarımızın işğaldan azad edilməsində, tarixi ədalətin bərpa olunmasında müstəsna rol oynayıb.

**İdeoloji Təminat İdarəsi**

---

Gizir Məmmədov Məhəmməd Əvəz oğluna verilmiş SQ № 0025662 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgər Şıxnəbiyev Cəmil Böyükağa oğluna verilmiş AD № 0060756 nömrəli, matros Şabanov Şamil Məhəmməd oğluna verilmiş AD № 0056273 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefon**
Müdafiə Nazirliyinin
Hərbi Nəşriyyatı üzrə növbətçi:
(012) 404-76-22

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Şəlalə CAMAL

Lisenziya № **361**
Sifariş № **405**
Nüsxə **3653**